*Anar Fazil oğlu ABBASOV*
*Azərbaycan Kooperasiya Universitetinin Biznesin təşkili,*
*Dövlət və Bələdiyyə idarəetməsi kafedrasının professoru,*
*iqtisad elmləri doktoru, dosent*

# QLOBALLAŞMANIN EKOLOJİ ÇAĞIRIŞLARI

**Xülasə**

Beynəlxalq münasibətlər sistemində XX əsrin sonlarından etibarən qloballaşmanın yeni dalğası müşahidə edilməkdədir. Bu proses internetin və sosial platformaların inkişaf etməsi, eləcə də iqtisadiyyatın ifrat dərəcədə modernləşdirilməsi ilə səciyyələnir və sosial-iqtisadi inkişafın sürətləndirilməsi baxımından kifayət qədər mütərəqqi meyillər vəd edir. Lakin bununla yanaşı qloballaşma prosesi özünəməxsus zərərli təmayülləri də bərabərində gətirməkdədir. Qloballaşma şəraitində iqtisadi səmərəliliklə sosial rifah və ekoloji səmərəlilik arasında, demək olar ki, tərs mütənasiblik müşahidə edilməkdədir. Prosesi səciyyələndirən ən mühüm məqam ondan ibarətdir ki, qloballaşma şəraitində güclənən qlobal rəqabət mühiti və qlobal bazarların konyukturu daha çox iqtisadi səmərəlilik əldə edilməsini şərtləndirir. Qlobal rəqabət mühitində maksimum iqtisadi səmərəlilik əldə edilməsi eyni zamanda təsərrüfat subyektlərinin müflisləşməsinin qarşısının alınması üçün əvəzedilməz vasitə hesab olunur. Bu baxımdan qlobal rəqabət mühitinə davam gətirmək məqsədilə təsərrüfat subyektləri ətraf mühitə qarşı, demək olar ki, şiddətli antropogen təsirlər də həyata keçirirlər ki, bu da davamlı olaraq ekoloji riskləri artırır, ekoloji fəlakətlərin əhatə dairəsini gücləndirir. Bu baxımdan məqalədə qloballaşmanın ekoloji çağırışları, ekoloji balansın qorunması, ətraf mühitin mühafizəsi və ekoloji sahədə mövcud olan problemlər bu və ya digər şəkildə öz əksini tapmışdır.

***Açar sözlər: qloballaşma, ekologiya, ekoloji böhran, qlobal iqlim dəyişiklikləri, ətraf mühitin mühafizəsi.***

***

XX əsrin sonlarından etibarən qloballaşma prosesləri nəinki ölkələrin ictimai-siyasi və sosial-iqtisadi həyatına, eləcə də insanların məişətinə əhəmiyyətli dərəcədə nüfuz edir və özünəməxsus təzahürlər doğurur. Artıq cəmiyyətin hər bir üzvü qlobal təsərrüfat subyektləri ilə yanaşı qloballaşma prosesinin, demək olar ki, daşıyıcısına çevrilir. Mobil rabitə vasitələri, sosial platformalar, eləcə də yüksək texnologiyalar, rəqəmsal iqtisadi münasibətlər sisteminin daşıyıcıları və s. iqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevrilmişdir. Doğrudur, adıçəkilən mexanizmlər iqtisadi inkişafın sürətləndirilməsində yeni təmayüllər doğursa da, lakin bununla belə ətraf mühitdə, ekoloji proseslərdə çoxsaylı problemlər müşahidə edilməkdədir. İqtisadi səmərəliliklə ekologiya arasında, demək olar ki, əks proses müşahidə edilir. İqtisadi inkişaf sürətləndikcə ətraf mühitə dəyən zərərlər daha çox artır. Bütün bunlar həm də bərpa olunmayan enerji mənbələrindən, yəni ənənəvi enerji resurslarından istifadə fonunda özünü daha çox büruzə verir. Bu isə ətraf mühitə ekoloji baxımdan zərərli qazların və kimyəvi maddələrin buraxılmasını səciyyələndirir və daha çox artırır. Davam edən lokal müharibələr, qlobal ekoloji fəlakətlər və s. 2100-cü ilə qədər kifayət qədər bədbin xarakter daşıyan proqnozları da bərabərində gətirir. Proqnozlara görə 2100-cü ilə qədər ərzaq istehsalı və sənaye istehsalı XIX əsrin 20-ci illərinin səviyyəsinə qədər azalacaq. Əhalinin sayı fəlakətli şəkildə XIX əsrin ortalarından bir qədər yuxarı səviyyəyə enəcək. Çirklənmə kifayət qədər yüksək olacaq [1, s. 306]. Fikrimizcə, bu proqnozlar qloballaşma prosesinin doğurduğu ziddiyyətlərin son nəticəsi olaraq meydana çıxa bilər. Başqa sözlə, antropogen təsirlərin güclənməsi, sənaye proseslərinin ifrat dərəcədə ətraf mühitə zərərli təsirlərinin sürətləndiyi şəraitdə bütün bunlar ekoloji fəlakətin pik həddindən sonra yaranan dağılma proseslərini özündə əks etdirə bilər. Fikrimizcə, əslində müəllifin irəli sürdüyü arqumentlər müasir şəraitdə qloballaşma prosesinin ən mühüm ekoloji çağırışları kimi də dəyərləndirilməlidir.

Coğrafiyaçıların hipotezlərində qlobal iqlim dəyişikliklərini və qlobal istiləşməni doğuran başlıca faktor kimi günəş aktivliyinin dəyişməsi, eləcə də yerin öz orbitindən nəzərəçarpacaq dərəcədə kənarlaşması, okeanların səviyyəsinin məhdudlaşması, vulkanların aktivləşməsi, eləcə

də qlobal temperaturun tsiklik olaraq yüksəlməsi və s. şamil edilir. Doğrudur, coğrafi arqumentlərlə təbii ki, razılaşmaq mümkündür və qəbul olunandır, lakin bununla belə qlobal iqlim dəyişikliklərinə son illər iqtisadi amillər, daha doğrusu antropogen amillər də əhəmiyyətli dərəcədə təsir göstərir. Məsələn, ötən əsrlərdə iqtisadi fəallıq XX əsrin sonu XXI əsrin əvvəllərindəki iqtisadi fəallıqla demək olar ki, müqayisəyəgəlməzdir. Daha doğrusu, XX əsrin sonu – XXI əsrin əvvəllərindən etibarən qlobal maliyyə böhranlarını və pandemiyanı istisna etsək, demək olar ki, yüksək iqtisadi fəallıq müşahidə edilməkdədir və bütün bunlar da bərpa olunmayan enerji resurslarının zaman-zaman bahalaşmasına gətirib çıxarmışdır. Məsələn, 1750-1800-cü illərdə orta qlobal temperaturun artması 0,8-1,2 dərəcə selsi olmuşdursa, XXI əsrdə orta qlobal temperatur 1,7 dərəcəyə qədər artmışdır. Parnik qazları ətraf-mühitdə 2,6-4,8 dərəcəyə qədər istilik doğurmuşdur [2]. İnsan fəaliyyəti nəticəsində yaranan, daha doğrusu antropogen təsirlər nəticəsində ətrafa buraxılan istixana qazlarının təxminən yarıya qədəri atmosferdə qalır. Son 20 ildə bütün antropogen karbon qazı imisiyalarının təxminən 3/4-ü neft, təbii qaz və kömürün hasilatı və yanması nəticəsində meydana çıxmışdır. Digər karbon $KO_2$ imisiyalarının əksəriyyəti isə landşaftdakı dəyişikliklər, ilk növbədə meşələrin qırılması ilə əlaqədar olmuşdur. Lakin yerüstü bitki örtüyü tərəfindən karbon qazının tutulma sürəti meşələrin qırılması səbəbindən onun antropogen buraxılış sürətini üstələyir [3]. Qlobal iqlim dəyişikliklərinin yaranmasında və eləcə də qlobal istiləşmənin formalaşmasında əhəmiyyətli rol oynayan amillərdən biri də istixana qazlarının buraxılması və eləcə də ərtaf mühitə zərərli hallar doğuran kimyəvi maddələrin buraxılmasıdır. Maraqlı məqamlar ondan ibarətdir ki, dünyada zəngin əhali kateqoriyaları ətraf mühitə daha çox mənfi təsir göstərirlər. Məsələn, Stokholm ətraf mühit institutunun 2015-ci il məlumatlarına görə dünyada insanların ən varlı 10% -i $KO_2$ imisiyalarının 50% -ni, ən zəngin 1%-i isə tullantıların 15% -ni ətraf mühitə atır. Bu da dünya əhalisinin sağlam şəkildə ekoloji qidalanmasına öz mənfi təsirini göstərir[4]. Şirin su çatışmazlığına gəldikdə isə, hazırda bu problem dünya əhalisinin 40%- dən çoxuna təsir edir və kənd təsərrüfatında sudan istifadə 70 %-dən çox xüsusi çəkiyə malikdir[5]. Yer kürəsində iqlimin dəyişməsi və ekoloji problemlər yaxın gələcəkdə milyonlarla qaçqının yaranmasına səbəb ola bilər. Lomonosov adına Moskva Dövlət Universitetinin professoru, siyasi elmlər doktoru Q. A. Dropotun fikrincə, dünyada ekoloji fəlakətlər səbəbindən qaçqın vəziyyətinə düşmüş 25 milyon insan var və onların sayı getdikcə artır. BMT - nin proqnozlarına görə 2050-ci ilə qədər 200 milyona qədər insan evlərini tərk etmək məcburiyyətində qalacaq. Dənizin qalxmasından, daşqınlardan, böyük ərazilərdə həyatı qeyri-mümkün edən quraqlıqdan sığınacaq axtarmalı olacaqlar. Təkcə 2007-ci ildə 11,5 milyon insan qaçqın düşmüşdür. Dəniz səviyyəsinin hər santimetr artması 1 milyon insanın öz daimi yaşayış yerindən uzaqlaşmasına gətirib çıxarır. Yaxın onilliklərdə qlobal istiləşmə, artan su qıtlığı və kənd təsərrüfatı torpaqlarının məhdudlaşması miqrasiya üçün həlledici rol oynayacaqdır[6, s. 73]. Akademik Ziyad Səmədzadə qeyd edir ki, gələcəkdə su qıtlığı dünya əhalisini qida problemi ilə üz-üzə qoyacaq. BMT-nin hesabatına görə əgər dünyada 2000-ci ildə su çatışmazlığı kənd təsərrüfatı və sənaye ehtiyacları da daxil olmaqla 230 milyard m3 qiymətləndirilirdisə 2025-ci ilədək planetdə içməli suyun çatışmazlığı 1,2-2 trilyon m3-ə çatacaqdır. Keçmiş Sovet ittifaqında Azərbaycanın payına suvarılan tarlaların 7%-i düşürdü. Lakin kifayət qədər nikbin proseslər də mövcuddur. Belə ki, işğaldan azad edilmiş ərazilərimizdə su mənbəyi yetərincədir. Gələcəkdə su qıtlığının yaranmaması üçün bu bölgənin su mənbəyindən səmərəli istifadə olunması, bütövlükdə Qarabağın azad edilmiş su ehtiyatları respublikamızın həm içməli su təchizatına, həm torpaqların suvarılmasına, həm də elektroenergetika sistemində yeni generasiya gücünün əldə olunmasına böyük töhfələr verəcək[7 , s. 856].

Hesab etmək olar ki, qloballaşma prosesinin doğurduğu ekoloji problemləri bəşər cəmiyyətinin səyləri ilə birlikdə dəf etmək mümkün olacaqdır. Ekoloji problemlərin həllinin təmin edilməsi cəmiyyət üzvlərinin normal və layiqli yaşam tərzinin gerçəkləşdirilməsində əhəmiyyətli rol oynaya bilər.

## ƏDƏBİYYAT

1. Гальперин М.В., Общая экология. Москва, 2023, 336 с
2. Michael E. Mann, Henrik Selin. Global warming" (англ.). britannica.com. Британская энциклопедия (1 апреля 2019)
3. Climate Change 2001: The Scientific Basis. Дата обращения: 24 сентября 2005
4. How the rich are driving climate change Архивная копия от 5 ноября 2021 на Wayback Machine, BBC, 29.10.2021
5. https://web.ccsu.edu/faculty/kyem/GEOG433/International_Problems/INTERNATIONAL_ENVIRONMENTAL_PROBLEMS.htm.
6. Дробот Г.А., Кочеткова Е.В., Экологические проблемы как глобальная угроза безопасности // Вестник Моск. ун-та. Сер.18., Социология и политология, 2009, n3, 61-73 с.
7. Səmədzadə Z. Ə., Qarabağ iqtisadiyyatı yüz ildə.V cild. Bakı, 2022, 856 s.



***Анар Фазил оглы Аббасов***
***Бизнес-организация Азербайджанского Университета Кооперации***
***Профессор кафедры государственного и муниципального управления***
***доктор экономических наук, доцент***


**Экологические вызовы глобализации**


***Резюме***

С конца XX века в системе международных отношений наблюдается новая волна глобализации. Этот процесс характеризуется развитием Интернета и социальных платформ, а также крайней модернизацией экономики и обещает достаточно прогрессивные тенденции с точки зрения ускорения социально-экономического развития. Но в то же время процесс глобализации несет с собой и свои пагубные тенденции. В условиях глобализации существует практически обратная корреляция между экономической эффективностью, социальным благосостоянием и экологической эффективностью. Важнейшим моментом, характеризующим этот процесс, является то, что в условиях глобализации среда глобальной конкуренции и усиливающаяся конкуренция глобальных рынков определяют достижение большей экономической эффективности. При этом достижение максимальной экономической эффективности в глобальной конкурентной среде считается незаменимым инструментом предотвращения банкротства хозяйствующих субъектов.



***Anar Fazil Abbasov***
***Business organization of Azerbaijan Cooperation University***
***Professor of the Department of State and Municipal Administration***
***doctor of economic sciences, associate professor***


**Ecological challenges of globalization**


***Summary***

A new wave of globalization has been observed in the system of international relations since the end of the 20th century. This process is characterized by the development of the Internet and social platforms, as well as the extreme modernization of the economy, and promises quite progressive trends in terms of accelerating socio-economic development. But at the same time, the process of globalization brings with it its own harmful tendencies. In the conditions of globalization, there is an almost inverse correlation between economic efficiency, social welfare and ecological efficiency. The most important point that characterizes the process is that in the conditions of globalization, the environment of global competition and the cannicity of global markets, which are intensifying, determine the achievement of greater economic efficiency. At the same time, achieving maximum economic efficiency in the global competitive environment is considered an indispensable tool for preventing the bankruptcy of economic entities.